# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 053 (7463)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 iyul 2026-cı il.
Qiyməti 1 manat

## 14 iyul 1969-cu il: Müstəqil və bütöv Azərbaycana doğru yolun başlanğıcı



4

## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda hansı mesajları verdi?




2

# AŞPA - tarixin zibilliyinə atılmış təşkilat...




7

## Bəhruz Quliyev: "Şuşadan dünyaya sülh və əməkdaşlıq mesajı verildi"



5

## Müasir təhsil sistemi uşaqlara nə qazandıracaq?



7

## 100 milyonuncu vətəndaş müraciəti!



6

## Danışarsan, cavabını alarsan...



5

## Məzuniyyət pulu necə hesablanır?



8

# Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda hansı mesajları verdi?

***İyulun 13-də Şuşada ”Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib. Qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi, ümumilikdə rəqəmsallaşma prosesləri fonunda dünya üzrə yeni və dinamik media mühitinin formalaşmasına biganə qalmayan Azərbaycan dünyanın 54 ölkəsindən qəbul etdiyi 150 media subyekti və beynəlxalq təşkilatlardan olan 270 qonaqla artıq 4-cü Şuşa Qlobal Media Forumunun ilk gününü başa vurdu.***




Müasir media mühitində müşahidə edilən tendensiyaların geniş spektrdan təhlili, sərhədlərarası media dialoqu və ictimai diskurs imkanlarını genişləndirərək qarşılıqlı etimadın möhkəmləndirilməsi, dezinformasiyaya qarşı koordinasiyalı reaksiyaların effektivliyinin artırılması, narrativlərin formalaşmasında medianın məsuliyyəti və süni intellekt dövründə etik çərçivələrə dair məsələlərin müzakirəsi üçün təşkil edilən qlobal forumun açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib və Forum iştirakçılarının suallarını cavablandırıb.







O çıxışında bildirib ki, Azərbaycan dünyanın o ölkələrindəndir ki, burada inanılmaz birlik var və biz ancaq özümüzə və dövlətimizə güvənirik. Birliyimizin heç vaxt sarsılmamasından bəhs edən İlham Əliyev bildirib ki, bu gün dünyada Azərbaycan cəmiyyətindəki birliyə oxşar mənzərə tapmaq çətindir. Dövlətimizin başçısı dünyanın dəyişdiyini, yeni təhdid və təxribatların ortaya çıxdığını bildirərək, Azərbaycana qarşı olan qüvvələrin heç vaxt öz niyyətlərindən əl çəkməyəcəklərini vurğulayıb. Həmçinin hüquqlarımızın, milli kimliyimizin qorunması və müstəqilliyimizin möhkəmləndirilməsi naminə bu mübarizənin daimi xarakter daşımalı olduğunu qeyd edib.

Prezident İlham Əliyev Forumun keçirilmə məqsədindən də danışıb: ”Tədbirin keçirilməsində ideya dünyanın müxtəlif guşələrindən gəlmiş media nümayəndələrinin qarşılıqlı maraq və narahatlıq doğuran məsələlər haqqında danışmaq, Qarabağla, Şuşa ilə tanış olmaq və bu kimi digər məqsədlərə xidmət etməkdən ibarət idi. Əminəm ki, buraya gəlmiş qonaqlar Qarabağın inkişafını, yenidən qurulmasını görürlər”.

O bildirib ki, bu gün dövlətimizin əsas gündəliyi dayanıqlı inkişafın təmin edilməsi, Qarabağın bərpası, yenidən qurulması, layihələrimizin yekunlaşdırılmasıdır ki, onların nəticəsində yeni nəqliyyat marşrutları yaradılacaq. Dövlətimizin başçısı əlavə edib ki, bizim gündəliyimizdə, həmçinin rəqəmsal transformasiya və süni intellektin inkişafı məsələləri də yer alır.

Ölkə başçısı daha sonra dövlətimizin dünya dövlətləri ilə qarşılıqlı əməkdaşlığından, çoxtərəfli əməkdaşlıq üçün platforma qurmağın tərəfdarı olmağımızdan, həm Qərb, həm də Şərq istiqamətində qonşularımızla əlaqələrimizin yaxşı olmasından, habelə Zəngəzur dəhlizi ilə bağlı vacib məqamlardan bəhs edib. O bildirib ki, istər Mərkəzi Asiya və Gürcüstan, istərsə də Türkiyə və Avropa ilə əlaqələrimiz yaxşıdır: ”Bütün bunları bir araya gətirmək üçün, əlbəttə, bir çox addımları atmalı idik ki, dəhlizlər faydalı olsun”.

Prezident qeyd edib ki, Azərbaycanın yürütdüyü siyasət hər zaman əməkdaşlığa yönəlib, qonşu dövlətlərin narahatlıq doğuran məsələlərinin həllinə çalışıb: ”Təbii ki, bu baxımdan Şuşada keçirilən media forumundakı bu mühiti, həmçinin bir çox beynəlxalq iştirakçılar arasında da yaratmağa çalışırıq”.

Dövlətimizin başçısı çıxışında 16 ölkəyə qaz boru kəmərləri ilə qaz nəql etməmiz barədə də danışıb: ”Bu göstərici üzrə biz dünyada birinci yerdəyik və bu imkanlar genişləndiriləcək. Biz Avropa İttifaqının digər üzvləri ilə də danışıqları aparırıq. Həm təchizatın başladılması, həm də həcmlərin artırılması ilə bağlı danışıqlar gedir, bununla bağlı bizə müraciətlər var. Bu gün Azərbaycan etibarlı tərəfdaşdır, proqnozlaşdırılabilən mənbədir və 10 il bundan əvvəl ilə müqayisə etsək, rolumuz daha vacibdir”, - deyə dövlətimizin başçısı əlavə edib.

İlham Əliyev daha sonra qardaş Türkiyə dövləti ilə bağlı da danışıb: ”Türkiyə və Azərbaycan əhalisi dünyanın bütün ölkələri ilə müqayisədə bir-birinə daha yaxın olan iki ölkədir. Əməkdaşlığın səviyyəsinə, siyasi, iqtisadi, enerji, bağlantılar, insanlar arasında olan münasibətlərə nəzər salın. Biz dünyada başqa iki elə dövlət tanımırıq ki, bir-birinə bu qədər yaxın olsun, bir-birini bu qədər dəstəkləsin, bir-biri ilə bu qədər dostluq etsin. Bu, xalqlarımızın çox böyük zənginliyidir və biz birgə daha güclüyük”.

lham Əliyev dünyada cərəyan edən müharibə və münaqişələr, o cümlədən Rusiya-Ukrayna müharibəsi ilə bağlı fikirlərini də bölüşüb. Dövlətimizin başçısı Rusiya-Ukrayna müharibəsi ilə bağlı deyib: ”Məncə artıq çoxdan dərk edilməli idi ki, bu müharibə dayandırılmalıdır və bu, dərhal baş verməlidir. Bu, Azərbaycanın mövqeyidir, bu, mənim insani mövqeyimdir”.

Azərbaycanın Avropa Komissiyasından və Avropa Şurası Parlament Assambleyası ilə münasibətlərindən, ABŞ, Yaponiya, Çin, Özbəkistan, Pakistan kimi ölkələrlə olan əməkdaşlıq və dostluq münasibətlərindən danışan İlham Əliyev islam ölkələrin in həmrəyliyi məsələsində də fikir bildirib: ”Biz hər zaman İslam ölkələri arasında həmrəyliyin tərəfdarı olmuşuq və bu istiqamətdə Azərbaycanda çoxsaylı tədbirlər keçirilib, bizim çoxsaylı təşəbbüslərimiz də əlbəttə ki, həmrəyliyin, birgə anlaşmanın gücləndirilməsinə yönəldilib. Təəssüf ki, bu gün biz o qədər də böyük islam həmrəyliyi görmürük. Gərginlik artmaqdadır, qarşılıqlı ittihamlar səslənir”.

Prezident İlham Əliyev çıxışı zamanı İran-ABŞ münaqişəsindən də danışıb və qonşu ölkələrə səslənib: ”Mən buradan qonşularımıza səslənirəm ki, məsuliyyətli olun, buna tezliklə son qoyun və çalışın tezliklə münasibətləri normallaşdırasınız. Bu proses eskalasiyaya, qlobal münaqişəyə çevrilə bilməz. Bu, çox böyük bir təhlükədir”. Prezident İlham Əliyev, həmçinin Pakistandan olan dostlarımızın vasitəçiliyi nəticəsində bu qarşıdurmaya son qoyulacağına ümidvar olduğunu deyib.

Forum daha sonra ”Rəqəmsal platformalarda təhlükəsiz informasiya mühiti: Müasir çağırışlar və vacib həllər” mövzusunda panel müzakirəsi, müxtəlif ölkələrin nümayəndələri, təşkilatlar ilə keçirilən qarşılıqlı görüşlərlə davam edib. IV Şuşa Qlobal Media Forumu iyulun 14-də də öz işini davam etdirəcək.

***Lalə Mehralı***

# Qarabağ və Şərqi Zəngəzur torpağında tarixi günlər

## Prezident İlham Əliyev: "Hər dəfə Qarabağda, Şərqi Zəngəzurda olanda və bu gözəl inkişafı görəndə, əlbəttə ki, ürəyim sevinir"

Genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısına çevrilib. Güclü dövlət və qazandığımız uğurlar bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olundu. Azərbaycanın həm hərb meydanında, həm də diplomatiya sahəsində Ermənistanı diz çökdürməsi dövlətimizin gücünün göstəricisidir. Bütün dünya Ordumuzun gücünü, işğalçı Ermənistanın məğlubiyyətini gördü. Azərbaycan xalqı başda olmaqla, bütün türk dünyası bu tarixi Zəfəri yaşadı. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət təkcə region dövlətlərinə deyil, bütün Avrasiya məkanında sülh və inkişafa yol açır. Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurdyuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir ki, işğaldan azad olunan ərazilərə etdiyi səfərlər zamanı həmin yerlərdən verdiyi mesajlar, açılışı olan obyektlər, yaradılan infrastruktur layihələri deməyə əsas verir ki, böyük quruculuq işləri nəticəsində bu ərazilərdə artıq yeni həyat başlanıb. Artıq doğma Vətənə, doğma şəhərlərə əzəli sakinlər qayıdırlar. ”Hər dəfə keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdanda hamımız üçün bayramdır, bütün Azərbaycan xalqı üçün bayramdır”. Bu sözləri Prezident İlham Əliyev Xocavənddə Quzeyxırman və Güneyxırman kəndlərinə köçən sakinlərlə görüşündə deyib. ”İndi elə ay olmur ki, qrup-qrup şəklində keçmiş köçkünlər öz doğma torpaqlarına qayıtmasın”, - deyə dövlətimizin başçısı əlavə edib.



### ”BİZ ÖZ HƏQİQƏTLƏRİMİZİ ONLARA QƏBUL ETDİRMİŞİK”

”Hər dəfə Qarabağda, Şərqi Zəngəzurda olanda və bu gözəl inkişafı görəndə, əlbəttə ki, ürəyim sevinir. Bir daha əmin oluram ki, biz nə qədər böyük xalqıq, qurub-yaradan xalqıq.” Bu fikirləri Prezident İlham Əliyev Xocavənddə Quzeyxırman və Güneyxırman kəndlərinə köçən sakinlərlə görüşündə səsləndirib. ”Bu torpaqların sahibləri bizik, bütün dünya bunu artıq nəinki bilir, hətta qəbul edir. Bəziləri istəməsələr belə, bunu qəbul etməyə məcburdurlar, çünki biz öz həqiqətlərimizi onlara qəbul etdirmişik”, - deyə dövlətimizin başçısı əlavə edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Laçına səfəri zamanı ”Həkəriçay” su anbarının təməlini qoyub. Layihəyə əsasən Azərbaycanın hüdudlarında formalaşan Həkəri çayı üzərində ümumi tutumu 100 milyon kubmetr, faydalı həcmi isə 90 milyon kubmetr olan su anbarı yaradılacaq, həmçinin suburaxma qabiliyyəti saniyədə 8 kubmetr, uzunluğu isə 172 kilometrə yaxın magistral boru kəməri inşa ediləcək. Bu infrastrukturun Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd və Ağdam rayonları üzrə təqribən 700 min nəfəri saniyədə 2,5 kubmetr həcmində keyfiyyətli içməli su ilə təmin etmək potensialı olacaq.




### ”SON 5-6 İL ƏRZİNDƏ XALQIMIZ QÜRUR HİSSİ İLƏ YAŞAYIR, HAQLI OLARAQ”

Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Hər daşı, hər abidəsi yenidən qurulur. Zəfər qazanan xalq hər qarış torpağına, məhz ruhuna uyğun olaraq nəfəs verir. Axı bu günü illərdir ki, gözləyirdik. Gözləyirdik ki, bizim yolumuzu gözləyən torpaqlarımıza nəfəs qataq. Əlimizlə, zəhmətimizlə, səsimizlə, addımlarımızla. Bu gün bizlərə nəsib oldu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş ”Yasəmən” hotelinin yeni korpusları ilə tanış olub. ”Yasəmən” hotelinin açılışı 2023-cü ildə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub. Orijinal görkəminə uyğun üslubda bərpa edilən ”Yasəmən” hotelinin eksteryer və interyeri Şuşanın orta əsr üslubuna uyğun layihələndirilib. XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbi tərzində inşa edilmiş bina işğal zamanı dağıdılmışdı. Heydər Əliyev Fondu həmin binada layihələndirmə işləri aparıb və 2023-cü ildən - bərpa işlərindən sonra binada fəaliyyət göstərən hotelin iki korpusu artıq qonaqları qəbul edir.

Hazırda isə ”Yasəmən” hotelinin yeni korpusları olan daha 4 binada Heydər Əliyev Fondu tərəfindən bərpa və tikinti işləri görülüb. Bərpa layihəsində qədim Şuşa evlərinin memarlıq xüsusiyyətləri əsas götürüləraək yeni konsepsiya əsasında planlaşdırma aparılıb. Butik konseptli yeni korpuslarda, həmçinin aynabənd və terras zonalar yaradılıb. Bərpadanəvvəlki arxiv fotoşəkillərinə əsasən qapı və pəncərələr orijinal memarlıq üslubuna uyğun olaraq yenidən hazırlanıb. Həyətyanı sahədə yaşıllaşdırma və abadlaşdırma işləri aparılıb. ”Xankəndi” hotelinin açılışı da görülən işlərin davamıdır. Dördmərtəbəli hotel binasında qonaqların rahat qalması üçün hərtərəfli şərait yaradılıb. Burada ümumilikdə 101 otaq var. Otaqlardan 92-si ”deluxe”, 4-ü ”superior”, 3-ü ”deluxe suite” və 2-si isə ”executive suite” kateqoriyalarına aiddir. Hoteldə eyni vaxtda 236 qonaq qala bilər. Burada bir sıra ictimai iaşə obyektləri, o cümlədən kafe, restoranlar və idman zalı fəaliyyət göstərəcək. Hoteldə 45 nəfər işlə təmin ediləcək. Onlardan 20-si işğaldan azad edilmiş şəhər və rayonlardan olan sakinlərdir. Bütün bu görülən işlərin vamaı olarq dövlətimizin başçısının qeyd etdiyi kimi, ”Biz bütün dünyaya göstərdik ki, böyük xalqıq, öz dədə-baba ənənələrimizə sadiqik”.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev bir sıra beynəlxalq qurumların rəhbər şəxslərini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da Maliyyə Tədbirləri üzrə İşçi Qrupu və Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin prezidenti, Böyük Britaniyanın Maliyyə Nazirliyində İqtisadi Cinayətkarlıq və Sanksiyalar üzrə direktor Giles Tompson, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Eqmont Qrupun sədri, Polşanın Maliyyə Nazirliyinin Maliyyə Məlumatları Departamentinin direktor müavini Elzbieta Franko-Yaskeviç, Eqmont Qrupun icraçı katibi, Fransanın Maliyyə Kəşfiyyat Orqanının Beynəlxalq əməkdaşlığı departamentinin direktor müavini Jerom Bomon, ”MONEYVAL” şirkətinin prezidenti, San Marinonun Maliyyə Kəşfiyyat Orqanının direktoru Nikolla Muçiolli, Eqmont Qrupun sədr müavini, Almaniyanın Maliyyə Kəşfiyyat Orqanının rəhbəri Daniel Teleskləf və Eqmont Qrupun sədr müavini, Səudiyyə Ərəbistanının Maliyyə Kəşfiyyat Orqanının rəhbəri Məhəmməd bin Əbdülrəhman Almuhannanı qəbul edib.



Söhbət zamanı ölkəmizin Eqmont Qrupun illik plenar sessiyasına ev sahibliyi etdiyi vurğulanaraq, tədbirin yüksək səviyyədə təşkil olunduğu, orada səmərəli müzakirələrin aparıldığı qeyd edildi. Görüşdə Azərbaycanla nümayəndə heyətinə daxil olan qurumlar arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, tərəfdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı. Ölkəmizdə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ardıcıl tədbirlər görüldüyü, bu istiqamətdə mühüm nailiyyətlərin əldə edildiyi bildirildi.

# 14 iyul 1969-cu il: Müstəqil və bütöv Azərbaycana doğru yolun başlanğıcı

***Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.***



Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi. 1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üççildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə millimənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

## Zaman sübut etdi ki...

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır. Məlumdur ki, 1991-ci ildə müstəqilliyin bərpasından sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

## Böyük ümidlərin təcəssümü

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 23 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 22 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

## Müstəqilliyimiz daimi, ərazi bütövlüyümüz tam oldu

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir.

***Mətanət Məmmədova***

# Bəhruz Quliyev: “Şuşadan dünyaya sülh və əməkdaşlıq mesajı verildi”

“Şuşada keçirilən Qlobal Media Forumu bir daha nümayiş etdirdi ki, müasir beynəlxalq münasibətlər sistemində informasiya amili artıq diplomatiyanın ayrılmaz tərkib hissəsinə çevrilib. Bu baxımdan forumun əsas mövzusu ”Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması” - təkcə jurnalistika üçün deyil, bütövlükdə beynəlxalq təhlükəsizlik və əməkdaşlıq baxımından da strateji əhəmiyyət daşıyır.” Bu fikirləri SİA-ya açıqlamasında ”Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.



Ekspert qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin beynəlxalq media nümayəndələrinin suallarını açıq, konkret və faktlara əsaslanaraq cavablandırması göstərdi ki, Azərbaycan öz mövqeyini hər hansı təbliğat üzərində deyil, beynəlxalq hüququn prinsipləri və bölgədə formalaşmış yeni geosiyasi reallıqlar əsasında təqdim edir.

Forumun ən mühüm nəticələrindən biri ondan ibarət oldu ki, dünyanın müxtəlif ölkələrindən gəlmiş nüfuzlu media nümayəndələri Azərbaycanın yaratdığı yeni reallığı yerində müşahidə etmək imkanı qazandılar. Uzun illər birtərəfli informasiyalarla formalaşdırılmış təsəvvürlərin əvəzinə, onlar işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərini, müasir şəhərsalma layihələrini, infrastrukturun yenidən qurulmasını və sülh gündəliyinin praktik nəticələrini öz gözləri ilə gördülər.

”Bu gün beynəlxalq medianın üzərinə düşən əsas vəzifə sensasiya yaratmaq deyil, həqiqəti obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırmaqdır. İnformasiya manipulyasiyasının geniş yayıldığı bir dövrdə peşəkar jurnalistikanın məsuliyyəti daha da artır. Şuşa Forumu da məhz bu baxımdan etimadın bərpasına xidmət edən mühüm beynəlxalq platforma kimi çıxış edir.

Prezident İlham Əliyevin çıxışında verilən əsas mesajlardan biri də Azərbaycanın regionda davamlı sülhün tərəfdarı olması idi. Dövlət başçısı bir daha bəyan etdi ki, Cənubi Qafqaz qarşıdurma məkanı deyil, əməkdaşlıq, iqtisadi inteqrasiya və qarşılıqlı etimad regionuna çevrilməlidir. Bu yanaşma Azərbaycanın həyata keçirdiyi xarici siyasətin ardıcıl və prinsipial xarakter daşıdığını göstərir.

Şuşadan beynəlxalq ictimaiyyətə verilən digər mühüm mesaj isə Azərbaycanın müstəqil qərarlar qəbul edən, milli maraqlarını qətiyyətlə müdafiə edən və eyni zamanda qlobal əməkdaşlığa açıq dövlət olması ilə bağlı idi. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, yaşıl enerji, rəqəmsal transformasiya və humanitar əməkdaşlıq sahələrində ölkəmizin irəli sürdüyü təşəbbüslər Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirir.

Şuşa Forumunda iştirak edən xarici jurnalistlərin çoxluğu və onların Prezidentə ünvanladıqları müxtəlif məzmunlu suallar da göstərdi ki, bu gün dünya mediası Azərbaycana artan maraq göstərir. Bu marağın əsas səbəbi Azərbaycanın regional proseslərdə həlledici aktora çevrilməsi və qlobal gündəlikdə mühüm rol oynamasıdır.

Düşünürəm ki, Şuşa Qlobal Media Forumu təkcə peşəkar müzakirə platforması deyil, həm də Azərbaycanın həqiqətlərini beynəlxalq informasiya məkanına birbaşa çatdıran mühüm diplomatik tribuna oldu. Buradan verilən mesajlar göstərdi ki, həqiqətin ən güclü müdafiəçisi obyektiv media, etimadın ən möhkəm təminatçısı isə şəffaf dialoqdur. Azərbaycan da məhz bu prinsiplər əsasında beynəlxalq əməkdaşlığın genişlənməsinə və regionda dayanıqlı sülhün möhkəmlənməsinə öz töhfəsini verməyə davam edir”, - deyə B.Quliyev əlavə edib.

# Böyük Qayıdış: Qarabağın məskunlaşdırılması işləri necə aparılır?

Böyük Qayıdış proqramı çərçivəsində Şuşa rayonunun Kiçik Qaladərəsi kəndinə ilk köç həyata keçirilib. Doğma yurdlarına qayıdan ailələr yeni inşa edilmiş fərdi yaşayış evləri ilə təmin olunub. Köç prosesi dövlətin işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası, sosial infrastrukturun qurulması və dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsidir.




Böyük Qayıdış Proqramı genişmiqyaslı layihədir və onun uğurla həyata keçirilməsi üçün zaman, böyük maliyyə resursları və ciddi təşkilati iş tələb olunur. Hökumət prosesi sistemli şəkildə həyata keçirir. Köçürülmə tələsik aparılmır, çünki bu, sonradan əlavə sosial problemlər yarada bilər. İlk növbədə yaşayış evləri bərpa olunmalı, kommunal infrastruktur, yollar, məktəblər, xəstəxanalar, sosial-mədəni obyektlər, iş yerləri və istehsal müəssisələri yaradılmalıdır. İnsanları sadəcə köçürmək kifayət deyil. Onların məşğulluğu, səhiyyə, təhsil, su, qaz, elektrik, internet kimi əsas xidmətlərlə təminatı vacibdir.

Bəli, Qarabağı mümkün qədər tez məskunlaşdırmalıyıq. Uzunmüddətli perspektivdə burada 1 milyona yaxın insanın yaşaması mümkündür. Bunun üçün zəngin təbiət, məhsuldar torpaqlar, bol su ehtiyatları və geniş turizm imkanları var. Sadəcə bütün yaşayış məntəqələri baş planlar əsasında sistemli şəkildə qurulmalıdır ki, sonradan problemlər yaranmasın. Yol infrastrukturu və nəqliyyat əlaqələrinin qurulması da xüsusi əhəmiyyət daşıyır. Qış aylarında bəzi ərazilərdə yollar bağlanır. Buna görə də, Laçında əlavə hava limanı tikilib ki, ekstremal hallarda hava nəqliyyatı ilə əlaqə saxlamaq mümkün olsun. Hazırda Qarabağın aran hissəsindəki şəhər və kəndlərlə bərabər, dağlıq hissəsi də- Laçın, Kəlbəcər, Ağdərə, Şuşa və digər yaşayış məntəqələrində yenidənqurma və sistemləşdirmə işləri davam edir.

Bu proqram dövlət büdcəsi, müxtəlif fondlar və xarici investisiyalar hesabına maliyyələşdirilir. Dövlət həm öz büdcəsindən, həm müxtəlif fondlardan, həm də xarici investorların vəsaiti hesabına bu prosesi sistemli şəkildə həyata keçirir. Artıq əsas işlərin böyük hissəsi görülüb. Lakin bəzi başqa problemlər var.

Bir çox ərazilərdə mina təmizlənməsi işləri davam edir. Təxminən 1 milyona yaxın mina basdırılmışdı. Ərazilər tam təhlükəsiz vəziyyətə gətirilmədən insanların köçürülməsi mümkün deyil. Minaların təmizlənməsi, kommunikasiya xətlərinin çəkilməsi, məktəblərin, uşaq bağçalarının və digər sosial obyektlərin hazır olması mərhələli şəkildə təmin edilir, bundan sonra köç həyata keçirilir.

Bütün bunlar baş plan əsasında sistemləşdirilməlidir. Bu işi tələsik görmək olmaz. Hesab edirəm ki, gələcəkdə köçkün olmayan vətəndaşlar üçün də Qarabağda yaşamaq və işləmək imkanları yaradılmalıdır. Yerli investorlar üçün güzəştlər tətbiq edilməli, yeni müəssisələrin açılması təşviq olunmalıdır. Vergi və kommunal xidmətlər sahəsində müəyyən güzəştlər də verilə bilər. 2030-cu ilə qədər əsas şəhər və kəndlərin bərpası başa çatacaq. Ondan sonra da proses davam edəcək, lakin artıq Qarabağın böyük iqtisadi potensialından tam istifadə etmək mümkün olacaq. Bölgədə iqtisadi aktivlik artacaq, məşğulluq genişlənəcək və ölkənin inkişafına mühüm töhfə veriləcək. Xankəndi şəhəri təxminən 100 min nəfərlik şəhər potensialına malikdir. Burada rahatlıqla geniş məskunlaşma mümkündür. Yaxın illərdə bu bölgədə böyük dəyişikliklərin şahidi olacağıq.

Qarabağ Azərbaycanın ən perspektivli bölgələrindən biridir. Azərbaycanın su ehtiyatlarının təxminən 30 faizi münbit və məhsuldar torpaq fonduna malik Qarabağ bölgəsində yerləşir. Böyük turizm potensialı var. Bəzi sənaye sahələri üçün də yaxşı perspektiv var. Əminəm ki, tezliklə Qarabağ bölgəsi əhalinin sıx məskunlaşdığı, böyük iqtisadi göstəricələrə malik zonaya çevriləcək.

***Elçin Bayramlı***



# Danışarsan, cavabını alarsan...

**MƏTANƏT**

***Müasir gənclərin bizi bəzən qınaması, vallah, heç də yersiz deyil. Son zamanlar onların üstünə çox gedirik, bəzi məsələlərdə çox deyinirik, onları tənbeh edirik. Onlar da bizə ”siz geridə qalmısınız, bu, belə deyil, bizim bildiyimiz, etdiyimiz kimidir”,-deyirlər. Məsələn, bəzi gənclərimiz var ki, ictimai yerlərdə ucadan danışırlar, deyib-gülürlər. Biz də onları görəndə cin atına minirik. İstər-istəməz onlar barədə danışanda, qınayanda, cavabımızı belə alırıq ki, ay yazıqlar, müasir dövrdür, indi alçaqdan yox, ucadan danışmaq lazımdır ki, hər kəs eşitsin, gülsün, kefi açılsın. Bir də ki, ucadan danışmaq, gülmək dəbdir.***

Tez-tez yolda, metroda, avtobusda, mağazada ağzında saqqız şövqlə çeynəyən gənclər görürsən. Yadına düşür ki, valideynlərimiz deyərdi, ictimai yerdə saqqız çeynəmək mədəniyyətsizlikdir, insanlara qarşı hörmətsizlikdir. İstəyirsən ki, bu tövsiyəni bəzi gənclərə edəsən. Qayıdıb nə desələr yaxşıdır? Saqqız çeynəmək müasirlikdir. İndi artıq sizin dövrünüz deyil. Saqqız təravətli nəfəsdir... Həm də dəbdir, məxsusilikdir.

Bu cavabı eşidəndə nə edirsən, matın-qutun quruyur.

Hazırkı cəmiyyətin müasirliklərindən biri də bəzi gənclərimizin geyimləridir ki, qızların yay-qış göbəkləri bayırdadır. Deyirsən, ay bala, bu nə geyimdir, axı sənə soyuq dəyər, xəstə olarsan, sabah bir qapını açıb gəlin gedəcəksən, ana olacaqsan. Nə üçün qorxmursan ki, səni bu geyimlə bəyənən olmaz? Nə desələr yaxşıdır? Cəhənnəmə bəyənsin, gora bəyənsinlər. İndi belə geyim bütün dünyada dəbdir. Bu, mənim tərzimdir, kim məni bəyənərsə, bu geyimlə də qəbul etməlidir.

Aldın cavabını, gözüm kəllənəmi çıxdı?

Bir də baxırsan ki, qarşıdan bir dəstə gənc oğlan gəlir. Birinin şalvarının dizi yoxdur, birinin saqqalı sinəsində, birinin saçı qalxıb göyün yeddinci qatına, o birinin saçı bir neçə rəngdədir, o birinin corabının bir tayı bir rəng, o biri tayı başqa rəngdir. Baxırsan-baxırsan, vallah, bilmirsən güləsən, ağlayasan, nə edəsən. Yeri gələndə söhbət açıb deyirsən ki, ay bala, kişinin kişi geyimi olar. O dizi yox şalvarı kişi əyninə geyinər məgər? O qadın saçı ilə kişi bayıra çıxar? Niyə o saçlarını qaydasında kəsdirmirsən? O corabı geyinəndə görmürsən ki, taykeşdir? Və yaxud da o saçını niyə çəhrayı rəngə boyamısan?

Hə, bunları deyib öyüd-nəsihət verəndə adamın üzünə elə qabarırlar ki, yerindəcə donub qalırsan. Cavabları isə bu olur ki, ay yazıq, sən keçmişdən gəlmisən. Biz isə bu gündə yaşayırıq. Buğunun dəbi budur. Həm də ki, kim istəyir cırıq şalvar geyinməsin, corabını taykeş yox, cüt geyinsin, saçını göyə qaldırmasın, yerə endirsin, rəngləməsin, öz rəngində saxlasın, onlardan bizə nə? Bu, bizim tərzimizdir.

Sən də udquna-udquna qalırsan, söz tapıb deyə bilmirsən. Bir də ki, axı nə deyəsən? Səni elə yerində oturdurlar ki, cınqırın da çıxmır.

Hə, elə qızlarımız var ki, əyinlərindəki bir qarışdan da qısa ətəklərini görəndə, deyirsən ki, İlahi, yəqin bunlar evdən çıxanda analarının başı mətbəxdə iş-gücə qarışıbmış, yoxsa... Fikirləşirsən ki, mən də olum bunun anası, nə olar, gəncdir, başa salım, düz yol göstərim. Deyirsən ki, qızım, bu ətəyin bir azacıq uzun olsa, sənə çox gözəl yaraşar. Qayıdıb sənə nə desə, yaxşıdır? ”Sən get öz qızına yol göstər. Mən evdən çıxanda görənim var. Bir də axı sən nə bilirsən, müasirlik nədir, dəb nədir? Sizlər XX əsrdə qalmısınız, indi XXI əsrdir”.

Deyirsən ki, dilim, dilim-dilim olasan, fərağat dayan da. Düz deyir də, anası var, evdən çıxanda görməyib məgər? Görməyib də özü bilər, görərdi də...

Heç nə, ta nə edəsən ki? Nə də etməlisən ki? Kor ol, görmə, kar ol, eşitmə, lal ol, danışma. Danışarsan, cavabını alarsan...

# 100 milyonuncu vətəndaş müraciəti!

## Prezidentin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən "ASAN xidmət" mərkəzləri yaradıldı

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi daşıyan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. Bu gün artıq həmin tarixdən 14 il ötür. Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşma modelidir. Bu model vətəndaş maraqlarına xidmət edir və yeni dövrün çağırışlarından irəli gələn xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqidir. Bu gün Azərbaycan brendi olan "ASAN xidmət" "vahid məkan" prinsipi əsasında fəaliyyət göstərir. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur ki, bu vətəndaş məmnunluğuna səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində bildirib ki, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir: "Yəni, "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq".

"ASAN xidmət"də 100 milyonuncu vətəndaş müraciəti qeydə alınıb. Həmin müraciət yeni doğulmuş İnci Kamallının anası Göyçək Kamalzadə tərəfindən 7 saylı Bakı "ASAN xidmət" mərkəzinə edilib. O, övladı üçün Ədliyyə Nazirliyinin həyata keçirdiyi doğumun qeydə alınması xidmətindən yararlanıb. "ASAN xidmət" modeli beynəlxalq səviyyədə də böyük maraq doğurur və bu günədək 35-dən çox ölkəyə ixrac edilərək dövlət xidmətlərinin təşkili sahəsində Azərbaycanın uğurlu təcrübəsi kimi paylaşılır.

### İCTİMAİ MÜNASİBƏTLƏRİN VƏ XİDMƏTLƏRİN MÜASİR MODELİ

Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bu onu göstərir ki. Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir". Dövlət başçısının dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var.




29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk "ASAN xidmət" mərkəzinin açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir. Həmin zamandan ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır. Bildiyimiz kimi, 3 may 2013-ci ildə "Asan xidmət"in Sumqayıt mərkəzinin açılışı oldu. Bundan bir neçə həftə sonra, mayın 24-də Bakıda ikinci "ASAN xidmət" mərkəzinin açılışı həyata keçirildi. Bu mərkəz iyunun 5-də vətəndaşlara xidmət göstərməyə başlayıb. 17 sentyabr 2013-cü ildə Bakıda üçüncü mərkəzin açılışı olub. 2013-cü ilin sonlarında, dekabrın 21-də Azərbaycanda sayca beşinci "ASAN xidmət" mərkəzinin açılışı oldu. Bu mərkəz Gəncədə fəaliyyətə başladı. 23 yanvar 2014-cü ildə "ASAN xidmət" mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatdı. Bakıda sayca dördüncü "ASAN xidmət" mərkəzinin açılışı isə 2014-cü ildə mayın 7-də oldu. Həmin ilin yayında "ASAN xidmət" səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə "Uğur 2013" mükafatına layiq görüldü. 2014-cü ilin dekabr ayının 15-də Sabirabadda "ASAN xidmət" mərkəzinin açılışı oldu. Daha sonra Bərdədə, Bakıda, Masallı və Qəbələdə, Qubada, Mingəçevirdə, İmişlidə və Şəkidə, Şamaxıda, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə, Lənkəranda "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.




### "ASAN XİDMƏT"İN BEYNƏLXALQ MÜKAFATLARI

Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirirlər: "BMT "ASAN"ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir". "Uğur 2013" "səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaşmünasibətlərinə verdiyi töhfələrə görə" nominasiyasının qalibi olub. İSO 9001:2008 idarəetməstandartı üzrə beynəlxalq sertifikatı alıb. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasının birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

### "BU, HANSISA BİR FƏRDİ LAYİHƏ DEYİL, BU, YANAŞMA TƏRZİDİR, BU, DÜŞÜNCƏ TƏRZİDİR, BU, BİZİM SİYASƏTİMİZDİR"

"ASAN xidmət" öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır". Bu fikirləri Azərbaycan Prezidenti Cənab İlham Əliyev bildirib. Dövlət başçısı qeyd edib ki, hər kəs görür ki, bu, hansısa bir fərdi layihə deyil, bu, yanaşma tərzidir, bu, düşüncə tərzidir, bu, bizim siyasətimizdir: "ASAN"da olan şəffaflıq, mədəniyyət hər yerdə tətbiq edilməlidir. Yəni, "ASAN xidmət" bir çox sahələr üçün nümunə olub. Təsadüfi deyil ki, indi sosial təminat sahəsində də buna oxşar layihə həyata keçirilir - DOST mərkəzləri fəaliyyətə başlayır və "ASAN xidmət" kimi, DOST mərkəzləri də bütün ölkəmizi əhatə edəcək. "ASAN xidmət" mərkəzlərinin yaradılması ilə bağlı kifayət qədər geniş proqramımız var".

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. 4 Saylı "DOST" Mərkəzinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. "ART School" - "İnklüziv İncəsənət Məktəbi" isə ildə orta hesabla 150-200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasını özündə ehtiva edir. Təbii ki, DOST mərkəzləri də daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə geniş imkanlar yaradır. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. 2013-cü ilin iyunun 1-dən etibarən artıq "ASAN xidmət"in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. Diqqətə çatdıraq ki, dövlət başçısının 2016-cı ilin mayında imzaladığı Fərmanla "ASAN kommunal" mərkəzlərinin yaradılması Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılmışdı və qısa müddətdə "ASAN kommunal" xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər həyata keçirildi. "ASAN Kommunal" mərkəzlərində Azeriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir.

"ASAN xidmət" mərkəzləri "vahid məkan" prinsipi əsasında fəaliyyət göstərir. "ASAN" modelinin altı əsas prinsipi var: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq. Mərkəzlərdə dövlət xidmətləri əlaqələndirilmiş şəkildə fəaliyyət göstərir. Ümumiyyətlə, bu gün Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin, həyatın firavanlığına yönəlib. Buna Azərbaycanın bütövlükdə inkişafı imkan verir. "Ölkəmiz müasirləşir, inkişaf edir. "ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar, - deyən Cənab İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Müasir təhsil sistemi uşaqlara nə qazandıracaq?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



Ölkəsindən, milliyyətindən, təhsil sistemindən asılı olaraq bütün valideynlər bir suala cavab axtarırlar: sürətlə dəyişən texnoloji imkanlar, yeniliklər fonunda övladımızın seçdiyi peşə ona faydalı olacaqmı? Hələ mövcud olmayan peşələrin yaranma ehtimalı, sürətlə dəyişən texnologiyaların formalaşdıracağı gələcəkdə uşağımızın potensialı davamlı ola biləcəkmi?

Bu gün valideynlər üçün hətta orta məktəb seçmək 10-15 il əvvəlki dövrə nisbətən daha vacib bir qərara çevrilib. Hamı övladının daha yaxşı məktəbdə, daha yaxşı təhsil almasını arzulayır. Sürətlə dəyişən dünyada problem sadəcə yaxşı qiymətlər almaqdan və ya ali məktəbə davam etməkdən ibarət olmayacaq, transformasiya qaçılmazdır. Mütəxəssislərin fikrincə, bu gün ibtidai məktəbə başlayan uşaqların böyük bir hissəsi gələcəkdə, hazırda mövcud olmayan, zamanla peyda olacaq işlərdə çalışacaq. Buna görə də, valideynlərin təhsildən gözlədikləri də çoxdur. Ailələr indi uşaqlarını problemləri özü həll edə bilən, özünü ifadə edə bilən, xarici dillərdən istifadə edə bilən, texnoloji cəhətdən bacarıqlı və özünəinamlı fərd kimi görmək istəyirlər. Bütün bunların isə məktəb və təhsil vasitəsilə ilə mümkün olacağını düşünürlər.

Xüsusilə də iş qrafiki ağır olan valideynlər üçün uşaqlarının günün əhəmiyyətli bir hissəsini keçirdiyi məktəbin yalnız bir təhsil müəssisəsi deyil, həm də inkişaf üçün təhlükəsiz bir mühit olması prioritetdir. Bəzi ölkələrdə məktəblərdəki insident, mühavizənin zəif olması məsələsi də bu baxışda rol oynayır. Buna görə də güclü mühavizə sistemləri, peşəkar rəhbərlik və porsonal, xarici dil təhsili, texnologiya tətbiqləri, incəsənət və idman fəaliyyətləri müasir təhsilin əvəzolunmaz elementləridir.

Hazırda beynəlxalq yeni nəsil təhsil yanaşması uşaqlara vahid bir perspektiv verməyi hədəfləyir. Uşaq bağçasında maraqlı, hər şeyə həvəsli və araşdırmaqdan zövq alan uşaqlar yetişdirmək, ibtidai məktəbdə güclü akademik təməllər qurmaq, şagirdlərə orta məktəbdə maraq və istedadlarını kəşf etmək üçün imkanlar yaratmaq, daha sonra liseydə, kollecdə universitet və karyera məqsədlərinə hazırlamaq gələcəyə yönəlmiş təhsil yanaşmasının əsasını təşkil edir.

Təsil həm də peşəkar kadrlar yetişdirir, həkim, müəllim, mühəndis, hüquqşünas və digər mütəxəssislərin hazırlıq səviyyəsi birbaşa təhsilin keyfiyyətindən asılıdır. Təhsil iqtisadi inkişafı sürətləndirir, yaxşı təhsil almış işçi qüvvəsi məhsuldarlığı artırır, innovasiyaları təşviq edir və ölkənin rəqabət qabiliyyətini yüksəldir, sosial rifahı gücləndirir. Keyfiyyətli təhsil iş imkanlarını artırır, yoxsulluğun azalmasına və sosial bərabərliyin möhkəmlənməsinə töhfə verir.

Təhsilli cəmiyyətdə həm də vətəndaş məsuliyyəti yaxşı formalaşır. İnsanların qanunlara hörmət etməsi, cəmiyyət həyatında fəal iştirakı və etik davranışı daha çox keyfiyyətli təhsillə əlaqəli məsələdir. Texnologiyaya həm də yeni sistemlərə uyğunlaşmanı asanlaşdırır. Müasir dövrdə sürətlə dəyişən texnologiyalar və əmək bazarına uyğunlaşmaq üçün keyfiyyətli təhsil vacibdir. Təhsilin keyfiyyətini müəyyən edən əsas amillər var ki, onlar da peşəkar və motivasiyalı müəllimlər, müasir və praktik yönümlü tədris proqramları, ədalətli qiymətləndirmə sistemi, təhlükəsiz və əlverişli təhsil mühiti, rəqəmsal resurslar və müasir texnologiyaların tətbiqi, valideyn, məktəb və cəmiyyət arasında əməkdaşlıqdır.

Nəticə etibarilə, bütün valideynlər övladının daha yaxşı bir gələcək qurmasının yolunun yaxşı bir təhsil sistemindən keçdiyini anladığı üçün bütün gücünü onun təhsili üçün səfərbər edir. Təhsilin keyfiyyəti yalnız fərdin gələcəyinə deyil, bütövlükdə ölkənin elmi, iqtisadi, sosial və mədəni inkişafına təsir göstərir. Keyfiyyətli təhsil alan insan daha hazırlıqlı, yaradıcı, məsuliyyətli və dəyişən dünyaya uyğunlaşa bilən vətəndaş kimi formalaşır.

***Lalə Mehralı***

# AŞPA - tarixin zibilliyinə atılmış təşkilat...

## Azərbaycanın bu qurumdan tam çıxması reallığa uyğun atılan addım ola bilər

Bu gün Azərbaycan dünya miqyasında sayılan, seçilən və hörmət göstərilən əsas dövlətlərdəndir. Bu prinsiplərə ölkəmizin qazandığı iqtisadi, siyasi, hərbi gücü, Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti ilə nail olunub. 44 günlük Vətən Müharibəsində qazanılan parlaq hərbi, diplomatik qələbə Azərbaycanın dünyada gücünə yeni güc qatdı. Lakin elə dövlətlər, beynəlxalq təşkilatlar var ki, onlar dünya xəritəsində yeni bir güc mərkəzinin olmasından ciddi narahatdırlar. Həm də onları əndişələndirən yeni aparıcı dövlətin müsəlman ölkəsi olmasıdır. Ona görə də, kor-koranə şəkildə dövlətlərin riyakar siyasətçiləri, hökumət adamları sifarişli şəkildə Azərbaycan haqqında dezinformasiya xarakterli informasiyalar paylaşırlar. Bəzən AŞPA, Avropa İttifaqı kimi artıq mənasız quruma çevrilən təşkilatlar göstərişə və rüşvət qarşılığında Azərbaycanla bağlı yanlış qərarlar qəbul edirlər. Qərarların əksər hissəsi erməni maraqlarına xidmət edir. Sanki Ermənistandakı revanşistlər AŞPA parlamentində oturub, Azərbaycanla bağlı hədyanlar səsləndirirlər. Halbuki, 30 il AŞPA Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, əhəmiyyətli qərarlar qəbul etməkdən çəkinib. AŞPA nizamnaməsinə görə isə quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alınmalıdır. Bu qanun 30 il Azərbaycan torpaqlarını işğalda saxlamış Ermənistana qarşı tətbiq olunmadı. Bu isə AŞPA-nın qərəzli və ikili standartlardan çıxış etdiyini göstərir. 44 günlük Vətən Müharibəsindən sonra AŞPA Azərbaycanın işğal altındakı torpaqlarını azad etdiyinə görə ermənilərin qara günlərinə, faciələrinə ağlaşma qurdular. Azərbaycanı hədəf seçməklə erməni himayədarı olduqlarını nümayiş etdirdilər.

### AŞPA mənasız quruma çevrilib

Diqqətçəkən məqam ondan ibarətdir ki, əksər hallarda AŞPA-nın və Avropa İttifaqının Azərbaycanla bağlı qəbul etdikləri qərəzli qərarların zərərini özləri çəkmiş olurlar. Misal üçün, Almaniya nasistlərinin rəhbəri, AŞPA-dan olan deputat Frank Şveberin Azərbaycanla bağlı irəli sürdüyü separatçı layihənin dəstəklənməsindən az sonra qurumun əsas söz sahibləri tərəfindən ciddi yanlışlığa yol verildiyini etiraf etmələrini göstərmək olar. Eyni üzrxahlığı Avropa İttifaqının nisbətən sağlam düşüncəli deputatları da




nümayiş etdirirlər. Belə ki, Avropa İttifaqının rüşvətə və korrupsiyaya bulaşmış deputatları cari ilin aprel ayının 30-da Azərbaycan haqqında separatçı qətnamə qəbul etmişdir. Təbii ki, qərar birbaşa erməni maraqlarına və separatizmin formalaşmasına xidmət edən qərar olmuşdur. Məhz bundan sonra Azərbaycan əsaslı olaraq Avropa parlamenti ilə bütün sahələrdə əməkdaşlıq əlaqələrini dayandırdığını açıqladı. Bundan sonra ciddi itkiyə məruz qalacaqlarını anlayan Avropalı İttifaqının deputatları mayın 21-də Strasburqda Avropa Parlamentinin plenar iclasının sonunda Azərbaycan parlamentinin Avropa Parlamenti ilə əməkdaşlığı dayandırmaq və "Euronest"dən çıxmaq barədə qərarını narahatlıq və həyəcanla müzakirə ediblər. Əksər deputatlar Avropa Parlamentinin aprelin 30-da Azərbaycanla bağlı qəbul etdiyi qərarın yanlış olduğunu və səhvin etiraf olunmasının vacibliyini bildirdilər. Avropa Parlamentinin "Euronest"dakı nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski Bakını çıxma qərarını yenidən nəzərdən keçirməyə çağırıb. O qeyd edib ki, ölkə "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun mühüm hissəsi olaraq qalır və onun Qara dəniz strategiyası, nəqliyyat əlaqəsi, energetika, rəqəmsal infrastruktur və regionda qarşılıqlı əməkdaşlıq layihələri üzrə müzakirələrdə iştirakı zəruridir. Məhz buna görə də, Azərbaycanda Avropa İttifaqına və AŞPA-ya münasibətdə fərqli yanaşmalar mövcuddur. Yəni AŞPA qərarlarını nasistlərə xas qərarlarların qəbulu ilə "zəngiləşdirsə" də, Avropa İttifaqı Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu nümayiş etdirir. Azərbaycan Prezidenti İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında Azərbaycanın Avropa Komissiyasından və Avropa Şurası Parlament Assambleyası ilə münasibətlərindən danışarkən əsaslı olaraq bunların arasında çox böyük fərqin olduğunu bildirdi: "Avropa Komissiyası ilə münasibətlərimiz müxtəlif olub. Cənab Borrelin Avropa diplomatiyasına rəhbərlik etdiyi dövrdə bizim aramızdakı münasibətlər, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələr demək olar ki, tam uçuruma gedib".

Prezident İlham Əliyev faktlara və mövcud reallıqlara uyğun olaraq qeyd etdi ki, Avropa Komissiyasında anti-Azərbaycan qrupu mövcud idi və ümid edirik ki, cənab Borrel birdəfəlik olaraq siyasətdən gedib: "O vaxtdan bəri bizim münasibətlər yaxşılaşmağa başladı. Xüsusən də biz gördük ki, həmin bu münasibətlərin qarşılıqlı şəkildə yenidən başlanılmasına böyük bir ehtiyac var və biz bunu dəstəklədik".

### Hərbi zəfərdən sonra AŞPA erməni lobbisi rolunu dərinləşdirdi

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında diqqətə çatdırdı ki, Azərbaycan Avropa Şurasından tam çıxmağı nəzərdən keçirir: "Avropa Şurasının Parlament Assambleyasına vaxtı ilə başqa bir mənzərə vardı. Mən təəssüf edirəm ki, belə bir hal baş verib. Vaxtilə mən 2001-ci ildə Azərbaycan Parlamentində üzv olduqda nümayəndə heyətinə rəhbər idim. İki il orada çalışdım. Orada il ərzində 4 sessiya keçirildi. Mənim üçün bu xoşa gəlməz hadisəsi idi. 2023-cü ildə biz öz legitim hüququmuzdan istifadə edərək separatçıların əlində qalan torpaqlarımızı işğaldan azad etdik. Lakin Azərbaycanı cəzalandırmaq üçün qətnamələr qəbul etdilər. 2024-cü ildə yanvarında Azərbaycan nümayəndə heyətinin akkreditasiyanı sual altına çəkdilər və səsvermə hüququndan məhrum etdilər. Bu, sırf insan hüquqları ilə bağlı məsələ deyildi. Onunla bağlı olsaydı daha əvvəldən edərdilər. Bu, sadəcə bizimlə, ərazi bütövlüyümüzlə bağlı bir cəza idi. Azərbaycan nümayəndə heyəti çox müdrik qərar qəbul elədi. Onlar görüşlərdə iştirakdan imtina etdilər. Əgər bizim səsvermə hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq?!".

Prezident İlham Əliyev çıxışında onu da qeyd etdi ki, Azərbaycan tam şəkildə Avropa Şurasından çıxsa, heç kəs bunu hiss etməyəcək: "Yəni, burada çox şey dəyişməyəcək. Bəlkə bundan daha yaxşı olacaq. Biz toqquşmaya getmək istəmirik. Azərbaycana qərəzlə yanaşırlar, onların iddiaları əsassızdır. Bu, bizim seçimimiz deyil. Biz təşkilata 2001-ci ildə könüllü olaraq qoşulmuşuq. O vaxt çox şey fərqli idi. Biz böyük istəklə, ümidlə daxil olduq ki, onlar bizə əsas istəyimizi, yəni Qarabağ münaqişəsinin həllində kömək edəcəklər".

Azərbaycan 30 illik erməni işğalına son qoyub, ərazilərini separatçı və terrorçu ünsürlərdən təmizlədikdən sonra Avropa Parlamenti Azəbaycanla bağlı 14 qətnamə qəbul edib. Hər bir qətnamə ədalətsiz, qərəzli və erməni maraqlarına xidmət üzərində qəbul edilən qətnamələr olub. Dağıdıcı müxalif ünsür AŞPA, Avropa Parlamenti kimi rüşvətə və korrupsiya girdabında əzilən qurumların Azərbaycanla bağlı qəbul etdikləri separatçı qətnamələrə haqq qazandırdılar. Milli Şura, AXCP, Müsavat liderləri və xaricdəki antimilli ünsürlər davamlı şəkildə doğulub boya-başa çatdıqları, suyunu içib, çörəyini yedikləri Azərbaycanı aşağılamağa, atributlarını təhqir etməyə çalışırlar. Hansı ki, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı və digərləri açıq şəkildə Azərbaycan qanunverciyini pozmaq siyasəti aparırlar. Düzdür, onların sırasında olub, qatı cinayət əməli törədən AXCP sədri Əli Kərimli, onun müşaviri Məmməd Rahim, onların işlərini koordinasiya etmiş Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev, AMEA katibliyinin keçmiş rəisi, Prezident Administrasiyasının sabiq əməkdaşı Eldar Əmirov və digərləri həbs olunublar. Onlar məhkəmə qarşısına çıxarılaraq layiq olduqları cəzanı alacaqlar. AŞPA, Avropa İttifaqı kimi qurumlara gəlincə isə onlarla əməkdaşlığa son qoyulur. Yaxın vaxtlarda isə Azərbaycan tam şəkildə AŞPA ilə vidalaşmalı olacaq. Uduzan, böyük itkilərə məruz qalan isə AŞPA olacaq, bundan sonra Avropa Parlamentinin "Euronest"dakı nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski kimi Azərbaycandan üzürxahlıq nəticə verməyəcək.

***İ.ƏLİYEV***

SƏS
14 iyul
2026-cı il

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN
XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

ARAŞDIRMA

# Məzuniyyət pulu necə hesablanır?



**Məzuniyyət pulunun hesablanması qaydası ölkədən ölkəyə fərqlənsə də, əsas prinsip eynidir: işçinin məzuniyyət dövründə gəlir itkisinə məruz qalmaması üçün ona orta əməkhaqqına uyğun ödəniş edilir. Lakin bu orta əməkhaqqının necə hesablanması hər ölkənin əmək qanunvericiliyi ilə müəyyən olunur. SİA mövzu ilə bağlı araşdırma edib.**



## Azərbaycanda məzuniyyət pulu necə hesablanır?

Azərbaycanda bu məsələ Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

**Hesablama qaydası:**

1. Məzuniyyətə çıxmazdan əvvəlki son 12 təqvim ayı üzrə əməkhaqqı toplanır.
2. Alınan məbləğ 12-yə bölünür və orta aylıq əməkhaqqı müəyyən edilir.
3. Orta aylıq əməkhaqqı 30,4-ə bölünür və bir günlük məzuniyyət haqqı hesablanır.
4. Bir günlük məbləğ məzuniyyət günlərinin sayına vurulur.

Tutaq ki, son 12 ay üzrə orta aylıq əməkhaqqınız 1 200 manatdır. Məzuniyyətiniz 21 gündür.

Hesablama: 1 200 ? 30,4 = 39,47 manat
39,47 ? 21 = 828,87 manat

Yəni təxminən 829 manat məzuniyyət pulu ödənilməlidir.

## Vacib məqamlar

-İşçi 12 aydan az işləyibsə, hesablamada faktiki işlədiyi tam aylar nəzərə alınır.

-Məzuniyyət haqqı işçiyə ən geci məzuniyyət başlamazdan 3 gün əvvəl ödənilməlidir.

-Əgər hesablanmış məzuniyyət haqqı işçinin son əməkhaqqından aşağı çıxarsa, müəyyən hallarda məbləğ son əməkhaqqı səviyyəsinə çatdırılır.

## Dünyada necə hesablanır?

Məzuniyyət haqqının hesablanması ölkələr üzrə fərqlənir.

Almaniya: İşçi məzuniyyətdə olarkən adətən adi maaşını almağa davam edir.

Fransa: İki metod müqayisə olunur (orta əməkhaqqı və ya illik qazancın müəyyən faizi) və işçi üçün daha sərfəli olan tətbiq edilir.

Birləşmiş Krallıq: Son 52 həftənin orta qazancı əsas götürülür, xüsusilə dəyişkən əməkhaqqı alanlar üçün.

ABŞ: Federal qanun ödənişli məzuniyyəti məcburi etmir. Məzuniyyət şirkətin daxili siyasətindən asılıdır.

Türkiyə: Məzuniyyət müddətində işçi normal əməkhaqqısını alır və ödəniş məzuniyyət başlamazdan əvvəl verilir

## Əsas fərqlər

Azərbaycan - son 12 ayın orta əməkhaqqısı əsasında hesablanır.

Avropa ölkələrinin əksəriyyəti - işçi məzuniyyətdə olarkən faktiki maaşını və ya orta qazancını alır.

ABŞ - ödənişli məzuniyyət qanunla bütün işəgötürənlər üçün məcburi deyil. Bu, əsasən əmək müqaviləsi və ya şirkət siyasəti ilə müəyyən edilir. Nəticə etibarilə, Azərbaycanın tətbiq etdiyi model beynəlxalq praktikada geniş yayılmış orta əməkhaqqı əsasında məzuniyyət haqqının hesablanması prinsipinə uyğundur. Fərq ondan ibarətdir ki, bəzi Avropa ölkələrində işçinin daha yüksək məbləğ almasını təmin edən əlavə mexanizmlər də mövcuddu

## Bəs niyə bəziləri ”əlavə məzuniyyət pulu aldım” deyir?

Bunun bir neçə səbəbi var. Məzuniyyət pulu maaşdan ayrı tarixdə ödənildiyi üçün insanlar bunu əlavə ödəniş kimi qəbul edirlər. Bəzi dövlət qurumlarında və ya özəl şirkətlərdə daxili qaydalara əsasən məzuniyyətə çıxan işçilərə birdəfəlik maddi yardım və ya əlavə müavinət verilir. Bu isə qanunla bütün işəgötürənlər üçün məcburi deyil.Əgər işçinin əməkhaqqısı dəyişkəndirsə (mükafatlar, əlavələr və s.), orta əməkhaqqına görə hesablanan məzuniyyət pulu adi aylıq maaşdan bir qədər fərqli ola bilər.

Yəni qanunla nəzərdə tutulan məzuniyyət pulu ”bonus” deyil, məzuniyyətdə olduğunuz günlər üçün ödənilən əməkhaqqıdır. Sadəcə, bu məbləğ məzuniyyət başlamazdan əvvəl hesablanıb ödənilir.

*Ayşən Vəli*

## BAŞSAĞLIĞI

Daşkəsən rayonu icra hakimiyyətinin başçısının müavini Namiq Süleymanova anası

**Tükəzban xanımın**

vəfatı ilə bağlı rayon mətbuat yayımının rəisi Yaqub Ələkbərov və Malik Ələsgərov dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**